**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№346/4** **28 iyul 2022-ci il**

**Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramının təsdiq edilməsi barədə**

Auditorlar Palatasının sədrinin 2022-ci il 26 iyul tarixli 1/27 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sistemin effektivliyinin artırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı"nın 3-cü "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlimlərin keçirilməsi" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın kadr hazırlığı idarəsi tərəfindən təqdim edilmiş "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramı"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramı" bəyənilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. iki həftə müddətində "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramı"nın Palatanın üzvlərinə çatdırılması təmin edilsin;

2.2. üç həftə müddətində təsdiq edilmiş proqrama müvafiq olaraq auditorların ixtisasartırma kursunu aparacaq fiziki və (və ya) hüquqi şəxslər Müsabiqə Komissiyası ilə birlikdə müəyyən edilsin;

2.3. cari ilin 01 sentyabr tarixinədək "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramı"nı tədris edən müəllimlərdən tədris materiallarının və ədəbiyyat siyahısının əldə olunması təmin edilsin.

3. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, üç həftə müddətində "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramı"nın tədrisi ilə əlaqədar smetanın hazırlanıb təqdim olunmasını təmin etsin.

4. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın və "Monitorinq subyektlərinə PL/TMM üzrə tələblərə, Milli Risk Qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlim proqramı"nın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**